## AZƏRBAYCAN RESPUBLİKASI KÜRDƏMİR RAYON İCRA HAKİMİYYƏTİ

### SƏRƏNCAM

**22 yanvar 2026-cı il**

**5-56/3-3-13/2026**

**Kürdəmir Rayon İcra Hakimiyyəti yanında İctimai Şuraya seçkinin təşkili məqsədilə Komissiyanın yaradılması barədə**

“İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikası Qanununun 6.1-ci maddəsinin icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 30 may 2014-cü il tarixli 171 saylı Qərarı ilə təsdiq edilmiş “İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə”nin 2.3-cü və “Yerli İcra Hakimiyyətləri haqqınd Əsasnamə”nin 6.8-ci bəndlərini rəhbər tutaraq

**Qərara alıram:**

1. Kürdəmir Rayon İcra Hakimiyyəti yanında İctimai Şuraya seçkinin təşkili məqsədilə 9 nəfərdən ibarət seçki komissiyası yaradılsın.

2. Seçki komissiyasının tərkibi yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının əməkdaşlarından 4 üzv, vətəndaş cəmiyyəti institutu nümayəndələrindən 5 üzv olmaqla aşağıdakı kimi təsdiq edilsin:

**Komissiyanın sədri:**

Ağali Kərimli - Kürdəmir Rayon İcra Hakimiyyəti başçısının müavini - Sosial-iqtisadi və memarlıq-tikinti məsələləri şöbəsinin müdiri

**Komissiyanın üzvləri:**

Süleyman Əhmədov - Kürdəmir Rayon İcra Hakimiyyəti Başçısı Aparatının Ərazi-təşkilat və ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini-Ərazi-təşkilat məsələləri sektorunun müdiri

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikası Kürdəmir Rayon İcra Hakimiyyəti
İmzalayan şəxs: Elşən Həsənli / Rəhbərlik / İcra hakimiyyətinin başçısı

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.esd.asan.gov.az/info/esign/CKUxUH78q%2F9ljATswjLF5AX1cBEgNAG7FBI%2Fe9jZFQQ%3D

| | | |
|---|---|---|
| Şahin Əhmədov | - | Kürdəmir Rayon İcra Hakimiyyəti Başçısı Aparatının Hüquq və kadr məsələləri sektorunun müdiri |
| Daşqın Rüstəmov | - | Kürdəmir Rayon İcra Hakimiyyəti Başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər sektorunun müdiri |
| Fərəc Dadaşov | - | Azərbaycan Vətən Müharibəsi veteranları İctimai Birliyinin sədri |
| Samir Şükürov | - | Kürdəmir rayon Təhsil İşçiləri Həmkarlar İttifaqının sədri |
| Əli Ağayev | - | Böyük Vətən Müharibəsi Əmək və Silahlı Qüvvələr İctimai Birliyinin sədri |
| Hikmət Usubov | - | Dövlət İdarə İşçiləri Həmkarlar Təşkilatının Kürdəmir rayon Komitəsinin sədri |
| Rasim Əzizov | - | Kürdəmir rayon Səhiyyə İşçiləri Həmkarlar İttifaqının sədri |

3. Kürdəmir Rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın tərkibi 7 nəfər müəyyən edilsin.

4. Seçki komissiyasına tapşırılsın ki, rayon İcra Hakimiyyətinin rəsmi internet səhifəsində (www.kurdemir-ih.gov.az) və digər müvafiq yerlərdə İctimai Şuraya seçkilərin təşkili ilə əlaqədar olaraq namizədlərin irəli sürülməsi, qeydiyyatının başlanması və başa çatması vaxtını elan etsin.

5. Komissiyaya tapşırılsın ki, Kürdəmir Rayon İcra Hakimiyyəti yanında İctimai şuraya namizədlərin irəli sürülməsi və qeydiyyatını "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin 2.9-cu maddəsinə uyğun olaraq 20 gün müddətinə başa çatdırsın və seçkilərin "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin tələblərinə uyğun olaraq həyata keçirilməsini təmin etsin.

6. Rayon İcra Hakimiyyəti Başçısı Aparatının Sənəd dövriyyəsi, vətəndaş müraciətləri və inzibati işlər şöbəsinin müdiri Elşən Əzizova tapşırılsın ki, sərəncamın aidiyyəti üzrə çatdırılmasını təmin etsin.

7. Sərəncamın icrasına nəzarət rayon İcra Hakimiyyəti başçısının müavini, Sosial-iqtisadi və memarlıq-tikinti məsələləri şöbəsinin müdiri Ağali Kərimliyə tapşırılsın.

**Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı** **Elşən Həsənli**

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikası Kürdəmir Rayon İcra Hakimiyyəti
İmzalayan şəxs: Elşən Həsənli / Rəhbərlik / İcra hakimiyyətinin başçısı

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.esd.asan.gov.az/info/esign/CKUxUH78q%2F9ljATswjLF5AX1cBEgNAG7FBI%2Fe9jZFQQ%3D